

Hikmət Nikbin

***

Ağacın böyümək ağrısı vardı,
ovcunda saralan yarpaqlarının
dalıyca yürümək ağrısı vardı.

Tanrı, hanı bu ağacın qayıqları?
Qayıqların ayaqları sular hanı,

Yuyacaq
çirkli əlləri dualar...

Sənsə kirlətmə özünü, dilim!
Qopart məni dərimdən,
bir də,
bir də dirilim!..

Qulaq asıram ağac gözlərə:
- Kim bizi qoyub qutuya?
- Dul anamız torpaq,
pıçıldayır dənizlər.

Adını
özümdə
saxlamaqdan
doymadım, Tanrı!..

# “Hamı gecələrə gəlir...”

bahar hanı?

Buludlar bir azdan
sayıqlayacaq...
Yenə,
yenə gözlərini qaraldıblar.

Dənizinsə gülür ovucları...
Göy üzünə tökülü
barmaqlarımsa soyuqlayıb,
yağan qarın, illərin,
saç-saqqalın ağardıbdır ağacın.

Gəlirəm, gəlirəm-deyir otaqlar,
gedirəm, gedirəm-deyir ayaqlar.
Hamı gecələrə gəlir,
otaqlar da.
Hamı bir gecə gedir,
ayaqlar da.

Daha sular da köhnədir,
daha axşam da köhnəlib.

Şeirimdəki ağac
üz tuta indilərdə
quşlara-kölgələr fəslini
sevənlərə.

***

Tapa bilmirdi ovcunu,
barmaqlarını dəniz.
Əllərini aparmışdı göy üzü,
sərmişdi buludları üstünə.

Ovunmurdu dişsiz stəkanlar da
qırdıqları göz yaşına.
Dua etməyə qulaqları da yox...

Kiminsə əlləri bulaşıb günaha,
kimsə gizlədir əllərini arxasında,
mənimsə əllərim danışır:
- Küləklər əsir edə bilməmişdi
söndürsə də gözünün odunu.

Üzünün cizgilərisə
sürgün edirdi sahilə ləpələri...

Ay işığı,
batan Günəş,
ulduzların kölgəsi
evidir dənizin.

***

Ayaqlarım danışacaq
ocaqdakı külün nağılını...
Göy üzünün
dolu yuxusunu kim bilir...

Bir azdan
axşam cücərəcək,

***

*(Vaqif Bayatlı Odərə)*

Dedin insanın qanadı olacaq,
bir başqa həyatı olacaq...
Uçacaqsan göy düzündə,
...ulduzlar qalacaq dizində.

Dodağından qopan söz kimi
qopar o budağın yarpağı...
...öz boyundan
yuxarı uçurar onu küləklər.
Ağacın boyundan
yuxarı qalxmasıdı
yarpağın qanad çıxartması.
Budağına dönə bilməyən
o yarpaq kimi
sən də
adiliyinə dönə bilməzsən,
adəm oğlu...

Su çəkiləndə
quruda, quruda çırpınar balıq.
Səma dənizə uçmaq həsrətiylə
boylanar göyə-
bəlkə qanad çıxartdım deyə,
səmada yaşayıb boy atdım deyə...
Qanad çıxaranda qarışqa
döyər ölümün qapısın,
baş götürüb
qaçmaq üçün düşünər-
bəs hanı pəncərəsi,
hanı göyümün qapısı...
Yarpaq,
balıq
ya qarışqa-
boyundan yuxarıda batar...
Yarpaq budaqdan qopar, ölər.
adəm oğlu torpaqdan qopar,
göyləri bölər...

Sən, Allahdan diş yox,
quş qanadı istədin.
Sən, Allahdan özünə
səma adı istədin...
Qanadın olsaydı
Tanrı səni necə çağırardı?
Dərgahına
açıq ya gizlicə çağırardı?
Peyğəmbərlər ölüb axı
hər insanın içində...
Tanrı bir sənə baxır
Sənsən Allah-təalanın içində.
Rəbbin sənə dedizdirir
bizi necə görmək istəyini.
Sözündə hiss etdinmi
fələyin ürəyini...
Bu şəhərin səhəri ola bilərsənmi?!